# Qarabağda aparılan quruculuq işləri vətəndaşlarımızın rifahına xidmət edəcək



***Şanlı Qələbədən sonra 30 illik yurd həsrəti bitir. Qarabağda öz yurd-yuvasını itirmiş məcburi köçkünlərin bu illər ərzində, qəlblərində yaşatdıqları ümid və arzuları reallaşır. Artıq Azərbaycan dövləti bu ərazilərdə quruculuq işlərinin aparılmasına başlayıb. Bunun üçün dövlət başçısı İlham Əliyev müvafiq qurumlara öz tapşırıq və tövsiyələrini verir. Prezident İlham Əliyevin Birinci vitse-prezident Mehriban xanım Əliyeva və qızları Leyla Əliyeva ilə birgə Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfəri çərçivəsində iştirak etdiyi açılışlar və səsləndirdiyi fikirlər bərpa işlərinin uğurla getməsindən xəbər verir. Bununla bağlı iqtisad üzrə fəlsəfə doktoru Elçin Quliyev öz fikirlərini "Xalq qəzeti"nə bildirdi:***

– Bu illər ərzində Azərbaycan dövlətinin apardığı islahatlar və gördüyü işlərdə azad ediləcək ərazilərin bərpası və orada böyük quruculuq işlərinin görülməsi daim əsas məsələ olub. Bu gün sevindirici haldır ki, məcburi köçkünlərin "Böyük qayıdış"ı istiqamətində ilkin işlərə başlanıb.

İşğalçı ölkə zəbt etdiyi Azərbaycan torpaqlarını 30 il ərzində həqiqi mənada istismar etmiş, onun maddi-mədəni sərvətlərini, meşə ehtiyatlarını, fauna və florasını talamış, bölgədə ekoloji və mədəni terror həyata keçirmişdir.

Azad edilmiş ərazilərdən yerli və xarici jurnalistlərin çəkdiyi reportajlar, eləcə də, Azərbaycan Müdafiə Nazirliyi tərəfindən ayrı-ayrı kəndlərimizlə bağlı ictimaiyyətə təqdim olunan videogörüntülər bunu aydın şəkildə sübut edir. Ərazilərdə bütün yaşayış evləri, sosial obyektlər, bir sözlə, infrastruktur tamamilə məhv edilib və yararsız hala salınmışdır. İndi həmin əraziləri bərpa etmək və qurub-yaratmaq zamanıdır. Bunun üçün isə dövlətimiz hərtərəfli şəkildə Qarabağın hər bir guşəsini abadlaşdırma işləri ilə bağlı layihələr nəzərdə tutur. Bu layihələr içərisində "ağıllı kənd" və "ağıllı şəhər" layihələri xüsusilə diqqəti cəlb edir. "Ağıllı kənd" layihəsi ilk olaraq, məhz Zəngilan rayonunda tətbiq olunacaq. Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra olunacaq "ağıllı kənd" layihəsinin məzmununa nəzər yetirdikdə görürük ki, burada müasir dövrün tələblərinə uyğun olaraq, hər bir vacib məsələ nəzərdə tutulub. Buraya yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələri daxildir. Bu gün elə bir dövrə çatmışıq ki, artıq alternativ enerji mənbələri dünyada geniş tətbiq olunmaqdadır. Təqdirəlayiq haldır ki, artıq ölkəmizdə də "yaşıl enerji"yə xüsusi önəm verilir. Bunun nəticəsidir ki, "ağıllı kənd" layihəsi çərçivəsində Üçüncü Ağalı kəndində inşa ediləcək 200 ev alternativ enerji mənbələri ilə təmin olunacaq.

Qarabağda şəhər və kəndlərimizin yenidən qurulması prosesində müasir texnologiyaların tətbiq edilməsi dövrün tələbi olmaqla yanaşı, həm də insan rahatlığı üçün nəzərdə tutulub. Prezident İlham Əliyevin səfər çərçivəsində Laçının Güləbird kəndində, Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə "Güləbird" Su Elektrik Stansiyasını işə salması da xüsusi qeyd edilməlidir. Məlumdur ki, Qarabağda relyefinə görə dağ çaylarının olması burada SES-lərin qurulmasına böyük imkanlar yaradır. Odur ki, gələcəkdə də bu cür SES-lərin tikilməsi bölgəyə qayıdacaq soydaşlarımızın şəraitinin daha da yaxşılaşmasına xidmət edəcək.

Dövlətimiz Qarabağda rayon və qəsəbələrimizin yenidən qurulması üçün nəzərdə tutulan bütün işləri görür. Lakin dost ölkələrin şirkətləri və investorlarının bu yenidənqurma işlərinə töhfə vermək üçün təklif və müraciətləri də təqdir olunmalıdır. Qardaş Türkiyədən olan bir sıra şirkətlər bu işdə xüsusilə fəallıq göstərirlər.

Bundan başqa, Böyük Britaniyanın Qarabağda bölgənin texnoloji inkişafına dəstək vermək təklifi, eləcə də digər ölkələrdən olan şirkətlərin azad edilmiş ərazilərin yenidən qurulmasına marağı onu göstərir ki, Azərbaycan bu məqamda da xarici investorlar üçün cəlbedici bir ölkədir.

Qarabağdakı ərazilərin mina və partlamamış qurğulardan tam təmizlənməsindən sonra abadlıq və quruculuq işləri, məcburi köçkünlərimizin oraya qayıdışının təminatı, sosial infrastrukturun bərpası, həmçinin orada iqtisadiyyatımızın inkişafına töhfə verən müəssisələrin də yaranmasına, əhalinin məşğulluğunun təmin olunmasına öz müsbət təsirini göstərəcək.

***Əfsanə ƏLƏSGƏRLİ, "Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 18 fevral.- S.4.